## Hepatit B və C-dən
## NECƏ QORUNMAQ OLAR?

- **Bunun üçün adi qaydalara əməl etməli:**
- inyeksiya zamanı steril şpris və iynələrdən istifadə etməli
- cinsi əlaqə zamanı prezervativdən istifadə etməli
- şəxsi gigiyena vasitələrindən (diş fırçası, üzqırxan və manikür alətləri) fərdi qaydada istifadə etməli
- tatuaj və pirsinq edən zaman birdəfəlik iynə və əlcəklərdən, dezinfeksiya olunmuş alətlərlə işləyən ustanın xidmətlərindən istifadə etməli
- cinsi partnyorlar vaxtaşırı diaqnostik müayinədən keçməli
- hepatit B-yə qarşı peyvənd olunmalı

## Yoluxmanın
## İLKİN ƏLAMƏTLƏRİ HANSILARDIR?

Xəstəliyin ilkin əlamətləri: ümumi zəiflik, halsızlıq, baş ağrıları, ürəkbulanma. Bu əlamətlər qrip və ya soyuqdəymə zamanı olan əlamətləri xatırladır. Bundan əlavə, qusma, öskürək, zökəm, temperaturun qalxması kimi əlamətlər də ola bilər.

## Viruslara yoluxmaqla bağlı şübhələr səni narahat edirsə, nə etməli?

Hepatitdən qorunma qaydalarına əməl etmədiyin üçün həyəcan keçirirsənsə, onda vaxt itirmədən məsləhət üçün tibb müəssisəsinə müraciət et!

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Buklet "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planına uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.



# Hepatit B və C

Düşünülməmiş addım atmaqla çox vaxt gənclər cinsi həyata tez başlayır və infeksiyalara yoluxma təhlükəsi ilə üzləşirlər.

**Diqqət! Erkən yaşda cinsi əlaqədə olmağa tələsmə!**

**Cinsi əlaqə zamanı mütləq prezervativdən istifadə et!**

**Bir cinsi partnyora sadiq ol!**

# HEPATİT - QARACİYƏRİN VİRUS İNFEKSİYASIDIR.

Qaraciyəri zədələyən və yüksək dərəcədə yoluxma riski olan bu virus, iyirminci əsrdə milyonlarla insanın həyatına son qoyub. Təəssüf ki, bu təhlükə hələ də sovuşmayıb və hər gün minlərlə insan hepatitə yoluxma təhküləsi ilə üzləşir.

## Hepatit B və C-yə YOLUXMA YOLLARI EYNİDİR:

### qan vasitəsilə

- qanköçürmə zamanı
- dezinfeksiya olunmamış qeyri-steril iynə və şprislərdən təkrar istifadə zamanı
- manikür, tatuaj, pirsinq edərkən qeyri-steril ləvazimatlardan istifadə zamanı
- istifadə olunmuş və üzərində qan qalıqları olan bərbər alətlərinin (üzqırxan, qayçı) və diş fırçalarının təkrarən istifadəsi zamanı

### cinsi yolla

- qorunmamış (prezervativsiz) cinsi əlaqə zamanı
- oral-genital kontaktlar zamanı yoluxmaq mümkündür, xüsusilə ağızs boşluğunda açıq yara olduqda

### Hepatit B, C-yə yoluxmuş anadan uşağa

- hamiləlik, doğuş və döşlə əmizdirmə zamanı



## Hepatit B və C ilə çox vaxt RİSK QRUPLARINA AİD OLAN İNSANLAR yoluxurlar:

- inyeksion narkotik istifadəçiləri
- prezervativsiz cinsi əlaqədə olan, həmçinin cinsi partnyorunu tez-tez dəyişən şəxslər
- kişilərlə cinsi əlaqədə olan kişilər
- hepatit B, C virusu daşıyanın cinsi partnyoru
- pirsinq və tatuaj edənlər
- tibb işçiləri
- tibbi müdaxilə (hemodializ, qanköçürmə, transplantasiya proseduru, stomatoloji müayinə, cərrahi əməliyyat və s.) olunmuş şəxslər
- məhbuslar
- cinsi yolla yoluxan infeksiyası (qonoreya, xlamidiya vəs.) olanlar
- hepatit B və C-nin geniş yayıldığı regionlara səyahət edən insanlar